

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 16 (23.178)

*23 yanvar 2019-cu il, çərşənbə*

**Gündəlik ictimai-siyasi qəzet**

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Visa" şirkətinin prezidenti Rayan MakInerni ilə görüşüb.

* * *

Həmin gün Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BP qrupunun baş icraçı direktoru Robert Dadli ilə görüşü olub.

* * *

Yanvarın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyeva ilə görüşüb.

* * *

Həmin gün Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstanın Baş naziri Mamuka Baxtadzenin görüşü olub.

* * *

Yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirilib.



## Naxçıvanda ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı təsdiq olunub

Müasir dövrdə inkişaf etmiş ölkələrdə özəl sektorun əsasını ailə təsərrüfatları və ailə biznesi təşkil edir. Çünki ailə təsərrüfatları özünüməşğulluğun təmin olunmasına və iqtisadi inkişafa mühüm töhfə verir. Bu gün muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, ailə təsərrüfatlarının biznes planları tərtib olunmuş, onlara güzəştli şərtlərlə kreditlər və müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları verilmişdir. Hazırda muxtar respublikada heyvandarlıq, quşçuluq, arıçılıq, bağçılıq və əkinçilik sahələri üzrə 800-dən çox ailə təsərrüfatı fəaliyyət göstərir. Bir faktı qeyd edək ki, 2018-ci ildə muxtar respublikada 319 ixtisaslaşmış ailə təsərrüfatı yaradılmış, 14 ailə təsərrüfatına 253 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilmiş, "Ailə təsərrüfatı məhsulları" festivalında 418 növdə, 23 min 146 adda məhsulun satışı həyata keçirilmişdir.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbov 2019-cu ili muxtar respublikada "Ailə təsərrüfatları ili" elan etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən muxtar respublikada ailə təsərrüfatı ilində ailə təsərrüfatlarının sahələr üzrə ixtisaslaşması və yeni ailə təsərrüfatlarının yaradılması dəstəklənəcək, ailə təsərrüfatlarının fəaliyyətinin stimullaşdırılmasına dövlət maliyyə dəstəyi göstəriləcəkdir. Tədbirlər Planında qabaqcıl ailə təsərrüfatlarının təcrübələrinin yayılması da əsas vəzifə kimi müəyyənləşdirilmişdir.

Zəngin təbiəti, təmiz havası və suyu, ekoloji saf məhsulları Naxçıvanda meyvəqurutma sahəsində ailə təsərrüfatlarının formalaşmasına əlverişli şərait yaradır. Yerli meyvələrin qurudulması, onlardan müxtəlif mürəbbə və şirələrin hazırlanması ənənəsi bu gün də yaşadılır. Ona görə də Tədbirlər Planında ailə təsərrüfatlarında meyvə və tərəvəzlərin qurudularaq paketlənməsi işinin təşkilinə köməklik göstərilməsi, muxtar respublika ərazisində yetişən yabanı meyvə və giləmeyvələrdən mürəbbə və şirələrin hazırlanması və satışının təşkil edilməsi konkret vəzifə kimi aid təşkilatların qarşısına qoyulmuşdur. Bundan başqa, muxtar respublikanın orta dağlıq ərazilərində yer fıstığı bitkisinin əkilməsinin əhəmiyyəti və iqtisadi səmərəsi barədə maarifləndirici tədbirlərin keçirilməsi, maili, yamac və dağətəyi zonalarda yerli məhsuldar sortlardan istifadə etməklə yeni meyvə və üzüm bağlarının salınmasına üstünlük verilməsi və damcı üsulu ilə suvarmanın tətbiqinin təbliği, ailə təsərrüfatlarında qızılgül mürəbbəsi və gülab istehsalının artırılmasına nail olmaq üçün qızılgül bitkisinin əkin sahəsinin genişləndirilməsi də nəzərdə tutulmuşdur.

Bu gün muxtar respublikada istehsal olunan keyfiyyətli məhsullar, eləcə də Naxçıvan mətbəxinin nümunələri ölkəmizdə və dünyada brend məhsul kimi qəbul olunur. Tədbirlər Planında bu sahədə fəaliyyət göstərən ailə təsərrüfatlarının yaradılması da diqqətdə saxlanılmış, "Naxçıvan qovurması"nın istehsalının genişləndirilməsi, kiçik həcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi sahəsində vəzifələr müəyyənləşdirilmişdir.

Ailə təsərrüfatlarının ən böyük iqtisadi səmərələrindən biri də gələcəkdə kiçik sahibkarlıq subyektlərinə çevrilməsidir. Bu işdə dövlət maliyyə dəstəyi ilə yanaşı, düzgün maarifləndirmə işinin aparılması da mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada bu istiqamətdə də tədbirlərin görülməsi nəzərdə tutulmuş, ailə təsərrüfatlarının inkişaf etdirilərək kiçik sahibkarlıq subyektlərinə çevrilməsi məqsədilə maarifləndirici tədbirlərin aparılması vəzifə kimi qarşıya qoyulmuşdur. Eyni zamanda ailə təsərrüfatlarında istehsal olunan məhsulların qapalı müəssisələrin təchizatı üçün satın alınması, ölkə daxilində, ölkə də xaricdə keçirilən seminar və konfranslarda böyük ailə təsərrüfatı subyektlərinin iştirakının təmin edilməsi, keçirilən sərgilərdə ailə təsərrüfatı məhsullarının nümayişi, ixracının təşviqi və kataloqunun hazırlanması da nəzərə alınmış, konkret vaxt verilərək aid təşkilatlar qarşısında tapşırıqlar qoyulmuşdur. Bu vəzifələrin icrası ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların ölkə və xarici bazarlara çıxış imkanlarını xeyli artıracaqdır. Nəticədə, təsərrüfatın gəlirləri artacaq və kiçik sahibkarlıq müəssisəsinə çevrilməsi sahəsində yeni imkanlar açılacaqdır.

Keyfiyyət amili istehsalın mühüm şərtidir. Təbii ki, bu işdə məhsulun sertifikatlaşdırılması, markalanması və qablaşdırılması istehlakçıların əsas tələbləri sırasındadır. Bu məsələyə diqqət yetirilməsi ailə təsərrüfatında istehsal olunmuş məhsulun həm bazara itkisiz çatdırılması, həm də böyük alıcı rəğbətinin qazanılmasına imkan verir. Qeyd olunan amillər nəzərə alınaraq Tədbirlər Planında ailə təsərrüfatlarında istehsal edilən məhsulların keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması, sertifikatlaşdırılmasının və markalanmasının təşkil olunması, bostançılıq və tərəvəzçiliklə məşğul olan ailə təsərrüfatlarında qurudulmuş və qablaşdırılmış məhsul istehsalının təşkili istiqamətində də tədbirlər həyata keçiriləcəkdir. Eyni zamanda ailə təsərrüfatlarında əkin atlaslarına uyğun olaraq əkinlərin keçirilməsinə nail olunması, ailə təsərrüfatlarında məhsuldar toxum sortları ilə əkin keçirilməsinin təbliğ olunması, əkindən əvvəl toxumların dərmanlanmasının əhəmiyyəti, əkin üçün seçilmiş sahələrdə gübrə normalarının tətbiqinin iqtisadi səmərəsi, suvarılan və dəmyə ərazilərdə taxılın şırım üsulu ilə əkilməsinin təbliği, məhsuldarlığın yüksəldilməsində bu üsulun üstünlükləri barədə maarifləndirmə işləri görüləcəkdir.

Muxtar respublikanın ərazisi yabanı tərəvəz və dərman bitkiləri ilə zəngindir. Tarixən həmin sərvətlərdən məişətdə və xalq təbabətində geniş istifadə olunmuşdur. Bu gün də kəndlərdə yabanı tərəvəz və dərman bitkilərinin istehsalı sahəsində ixtisaslaşmış ailə təsərrüfatları vardır. Bu amil nəzərə alınaraq Tədbirlər Planında yabanı tərəvəz və dərman bitkilərinin toplanması, emalı, qurudulması, paketlənməsi və satışına dəstək verilməsi nəzərdə tutulmuşdur. Həmçinin ailə təsərrüfatlarında təbii-coğrafi şərait nəzərə alınmaqla təkrar əkinlərin aparılmasının təbliğ olunması və maarifləndirici tədbirlərin keçirilməsi, ailə təsərrüfatlarında istehsal olunan məhsulların saxlandığı anbar və digər yardımçı binalarda xəstəlik və zərərvericilərə qarşı tədbirlərin aparılmasına əməli köməkliklərin göstərilməsi qərara alınmışdır.

Naxçıvanda heyvandarlıq və maldarlığın inkişafı ənənəvi süd məhsulları istehsalının geniş yayılmasına səbəb olmuşdur. Bu gün Naxçıvanda istehsal olunan süd məhsulları rəqabətqabiliyyətliyi ilə seçilir və bazarın tələbatını ödəyir. Keyfiyyətin yüksək olması isə böyük alıcı marağına səbəb olmuşdur. Südçülüklə məşğul olan ailə təsərrüfatlarında xama, qaymaq, şor, qurut, motal pendir və digər ənənəvi süd məhsullarının istehsalının təbliğ edilməsi həm istehsal olunan məhsulların həcminin, həm də keyfiyyətinin dəyişilməsinə səbəb olacaq, eyni zamanda bu sahə üzrə ixtisaslaşmış yeni ailə təsərrüfatları yaradılacaqdır.

Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti, iqlimi və bitki örtüyü burada arıçılığın inkişafına geniş imkanlar açır. Hazırda muxtar respublikada arı ailələrinin sayı artaraq 71 mini ötmüş, bu sahədə yüzlərlə ailə təsərrüfatı formalaşmışdır. Ona görə də Tədbirlər Planında arıçılıqla məşğul olan ailə təsərrüfatlarına dəstək verilməsi ön plana çəkilmiş, arıçılara lazımi köməklik göstərilməsi, balverən bitkilərin əkininin dəstəklənməsi, mövcud arı cinsinin qorunub saxlanılması ilə bərabər, ana arıların yetişdirilməsi üçün damazlıq təsərrüfatının yaradılması da diqqətdə saxlanılmışdır.

Ailə təsərrüfatlarının texnika ilə təminatı məhsul istehsalında əsas şərtdir. Muxtar respublikada aqrolizinq xidmətinin müasir tələblər səviyyəsində qurulması, alınıb gətirilən yeni texnikalar fermer və torpaq mülkiyyətçilərinin fəaliyyətini xeyli stimullaşdırmışdır. Artıq muxtar respublikada aqroservis sahəsi üzrə ixtisaslaşmış ailə təsərrüfatı da vardır. Bu amil əsas götürülərək ailə təsərrüfatlarını müasir, kiçik ölçülü texnika və avadanlıqlarla təmin etməklə aqroservis xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, texnikalardan düzgün və səmərəli istifadə məqsədilə müvafiq təlim kurslarının keçirilməsi müəyyənləşdirilmişdir. Tədbirlər Planında ailə təsərrüfatlarına məxsus təsərrüfat sahələrinin sığortalanmasının təbliğ edilməsi, böyük ailə təsərrüfatlarının pasportlaşdırılması işinin başa çatdırılması, ailə təsərrüfatlarının və onların istehsal etdikləri məhsulların statistik uçotunun aparılması, eləcə də hər il "Ailə təsərrüfatı məhsulları" festivalının keçirilməsi də qərara alınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər Planının icrası bu sahədə əsaslı dönüşün yaradılacağına tam təminat verir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Berlində keçirilən "*Beynəlxalq Yaşıl Həftə*" sərgisində Naxçıvan məhsulları nümayiş etdirilir

*Yanvarın 18-də Almaniya Federativ Respublikasının paytaxtı Berlində qida, kənd təsərrüfatı və bağçılıq sahəsində ənənəvi "Beynəlxalq Yaşıl Həftə" sərgisi və kənd təsərrüfatı nazirlərinin 10-cu Qlobal Ərzaq və Kənd Təsərrüfatı Forumu keçirilib.*




Dünyanın ən mötəbər beynəlxalq sərgilərindən biri olan və illik əsasda keçirilən "Beynəlxalq Yaşıl Həftə" sərgisində Azərbaycan ayrıca stendlə təmsil olunur. Milli stenddə ölkəmizin 14 şirkətinin məhsulları nümayiş etdirilir.

Azərbaycan pavilyonunda Naxçıvan Muxtar Respublikasına ayrılmış guşədə Naxçıvanda fəaliyyət göstərən şirkətlərin məhsulları nümayiş etdirilib. Kənd təsərrüfatı və yeyinti məhsullarının nümayişi, satışı, müəssisələrin imicinin formalaşdırılması, brendlərinin reklamı və eyni zamanda iştirak edən müəssisələrin kooperasiya əlaqələrinin genişləndirilməsi, yeni tərəfdaşların tapılması məqsədilə təşkil olunmuş "Beynəlxalq Yaşıl Həftə" sərgisinə muxtar respublikanın 8 istehsalçı şirkətinin 12 növdə 36 çeşiddə məhsulu çıxarılıb.

Qeyd edək ki, gün ərzində milli stendimizə çoxlu sayda qonaqlar və bir sıra ölkələrin yüksək vəzifəli rəsmiləri baş çəkiblər. Naxçıvan məhsulları sərgi iştirakçılarında böyük maraq doğurub.

"Beynəlxalq Yaşıl Həftə"də "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin və Babək "Sirab" Açıq Səhmdar Cəmiyyətinin mineral suları, "Gəmiqaya Qida Məhsulları Sənaye Kompleksi" MMC-nin şərabı, meyvə suları, halvası, "Şərur-3" MMC-nin spirtli içkiləri və likörü, "Ləzzət Biskvit və Şokolad Fabriki" MMC-nin lokumu, "Naxçıvan Duz İstehsalı" MMC-nin duzu, "F.H. Oğulları" MMC-nin mürəbbələri, "Naxçıvan Məhsulları" MMC-nin müasir şəkildə qablaşdırılan meyvə quruları, alma sirkəsi nümayiş olunub.

Yanvarın 27-nə qədər davam edəcək sərgi çərçivəsində iştirakçılara Naxçıvan haqqında müxtəlif çap məhsulları və kataloqlar, şirkətlərə aid təbliğat materialları təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinin qeyd olunması Heydər Əliyev siyasi xəttinə dərin sədaqətin bariz nümunəsidir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planına əsasən yubiley ilə əlaqədar il ərzində, xüsusilə fevral, mart və noyabr aylarında silsilə tədbirlər keçiriləcək, fevralın 9-da yubiley tədbiri olacaqdır.***



Naxçıvan Muxtar Respublikasının yerləşdiyi region tarixboyu özünün daha çox strateji və siyasi əhəmiyyəti ilə diqqəti cəlb edib. Təsadüfi deyil ki, hələ qədim dövrlərdən bəri bu diyarı "Şərqin qapısı" adlandırırlar. Müasir dövrümüzdə tanınmış strateqlər yüzilliklərin çətin tarixi-siyasi süzgəcindən keçib gələn bu ifadəni dövrün reallıqları prizmasından qiymətləndirərək böyük həqiqəti bir daha ifadə edirlər: Naxçıvan bu gün də Şərqin qapısıdır. Buna görə də tarixboyu böyük dövlətlər Naxçıvana nəzarət etmək xəyalı ilə yaşayıblar. Ötən əsrin 20-ci illərində gedən proseslər isə qədim diyarımızın muxtariyyət statusu qazanaraq əbədi olaraq Azərbaycanın tərkibində qalması ilə nəticələnib. Bu mənada, ulu öndərimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasını Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət adlandırması təsadüfi deyildir.

Bu gün Naxçıvanın muxtariyyəti beynəlxalq unikal bir model, hüquqi, siyasi və tarixi baxımdan bir fenomen kimi qiymətləndirilir. Çünki onun muxtariyyəti daxili qanunvericiliklə yanaşı, həm də beynəlxalq müqavilələrlə təsbit olunub. Bu məsələdə Naxçıvanın qabaqcıl ziyalılarının səyləri və qardaş Türkiyənin mövqeyi qədim diyarı dəhşətli aqibətdən xilas edib. Muxtariyyət statusu Rusiya ilə Türkiyə arasında 1921-ci ildə bağlanılan Moskva müqaviləsi ilə, daha sonra isə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalanan Qars müqaviləsi ilə rəsmiləşdirilib. Bəs bu statusun verdiyi imkanlar Naxçıvanın sonrakı taleyində hansı rol oynayıb?

Qədim diyarın muxtariyyət statusuna malik olması bir neçə aspektdən çox əhəmiyyətlidir:

*Birincisi,* çoxəsrlik Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Naxçıvanın 1924-cü il fevralın 9-da muxtariyyət qazanması düşmənlərimizin ölkəmizə qarşı həyata keçirməyə çalışdığı məkrli planlara sarsıdıcı zərbə vurdu. Məlumdur ki, muxtariyyət məsələsinin siyasi gündəmdə yerini almasının əsas səbəbi 1920-ci il dekabrın 2-də Rusiya və Ermənistan arasında bağlanmış hərbi-siyasi saziş oldu. Həmin sazişə əsasən qədim Azərbaycan torpağı olan Zəngəzur Ermənistana verildi və beləliklə, Naxçıvan məqsədli şəkildə Azərbaycanın əsas ərazisindən ayrı salındı. Türk dünyasına düşmən kəsilən qüvvələrin niyyətləri o idi ki, bir müddət sonra Naxçıvanı ölkənin əsas ərazisindən ayrı düşməsi arqumentini irəli sürməklə onu Ermənistana birləşdirsinlər. Bu amil Naxçıvanın muxtariyyət məsələsini zərurətə çevirirdi. O zərurət ki, ilk növbədə, Azərbaycana məxsus ərazinin qorunması vacibliyindən irəli gəlirdi.

Naxçıvan məsələsinin beynəlxalq gündəmdə yer aldığı illərdə qabaqcıl ictimai-siyasi yanaşmanın məhsulu olan bu qərar böyük dövlətlər tərəfindən ciddi müqavimətlə qarşılanırdı. Buna baxmayaraq, yerli əhalinin və ziyalıların inadlı mübarizəsi nəticəsində mühüm strateji əhəmiyyət kəsb edən Naxçıvanın muxtariyyət qazanması qədim diyarımızın ölkəmizin tərkibində qalmasına şərait yaratdı.

*İkincisi,* Azərbaycandan ayrı salınmış bu diyarda qərarların icrası, eyni zamanda yerlərdə lazım olan işlərin daha effektiv şəkildə həyata keçirilməsi, sabitliyin və inkişafın təmin olunması məqsədilə vahid idarəçiliyin təşkili mühüm əhəmiyyət kəsb edirdi. Təcrübədən də məlumdur ki, vahid idarəçilik olmayan yerdə həmişə anarxik bir idarəçilik formalaşır, dövlət idarəçiliyində çox ciddi problemlər yaranır. Belə bir vəziyyətdə istənilən ölkə və ya diyar xaosa sürüklənir, onun gələcəyi sual altında qalır. Vahid idarəçiliyin həyata keçirilməsi, pərakəndəliyin aradan qaldırılması isə yalnız muxtariyyət statusunun əldə edilməsi ilə mümkün ola bilərdi. Bu baxımdan Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət verilməsi ən düzgün qərar idi.

Qədim diyar muxtariyyət qazandıqdan sonra muxtar dövlət quruculuğu prosesi aparıldı, idarəçilik ənənələrinə bütün dövrlər üçün böyük əhəmiyyətə malik yeniliklər bəxş edildi, yeni formasiyada muxtar dövlət idarəçiliyinin nəzəriyyə və təcrübəsi formalaşdı. Bununla səmərəli idarəçiliyin əsası qoyuldu, muxtar respublikadakı dövlət orqanlarının fəaliyyətinin çevikliyi və şəffaflığı gücləndirildi, sakinlərin qayğı və ehtiyaclarına daha diqqətlə yanaşıldı, idarəçilikdə məsuliyyət prinsipi ön plana çıxdı. Bütün bunların məntiqi nəticəsi olaraq sakinlərin dövlət idarəetmə orqanlarına inamı, hakimiyyət strukturlarına etimadı daha da artdı.

*Üçüncüsü,* Naxçıvanın muxtariyyət statusuna malik olması onun təhlükəsizliyinin təmin olunmasında da müstəsna rol oynayıb. Muxtariyyət statusu erməni təcavüzünə məruz qalan Naxçıvanın 1990-cı il yanvarın 19-da keçmiş SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etməsinə imkan verib, bununla da beynəlxalq aləmin diqqəti erməni təcavüzünə yönəldilib. Sovetlər Birliyinin yaşadığı dövrdə onun dağılmasına ilk zərbəni vurmağa heç bir xalq, heç bir müttəfiq respublika və ya muxtar respublika cəsarət etməmişdi. Bunu yalnız Vətən uğrunda, azadlıq, müstəqillik uğrunda ölümə meydan oxuyan qəhrəman naxçıvanlılar edə bilmişdi.

Ümumiyyətlə, bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı həmin dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına hərtərəfli şərait yaradıb.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisinin işğaldan, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Bu illərdə dahi şəxsiyyətin Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci həyat bəxş edib.

*Dördüncüsü,* 1990-1993-cü illərdə Naxçıvanın muxtariyyət statusuna malik olması həmin illərdə qədim diyarda müstəqil Azərbaycanın dövlət quruculuğunun əsaslarını təşkil edən tarixi qərarların qəbul edilməsinə, idarəçilik qanunlarının işlənib hazırlanmasına, ordu quruculuğuna, sosial-iqtisadi islahatların aparılmasına şərait yaratdı.

*Beşincisi,* Naxçıvan həm də Azərbaycanın böyük dövlətçilik ənənələrinə malik olan qədim diyarıdır. X əsrdə burada "Naxçıvan şahlığı"nın, XII əsrdə isə Atabəylər dövlətinin yaranması da bunu təsdiq edir. Bundan əlavə, XVIII əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına əsaslı töhfələr verib. XX əsrin əvvəllərində həmin dövlətçilik ənənələrinin əsasında 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası yaradılıb. Bu mənada, 1924-cü ildə Naxçıvanın muxtariyyət qazanması həm də tarixboyu yaranan dövlətçilik ənənələrinin davam etdirilməsinə rəvac verib.

Ulu öndərimiz çıxışlarında dəfələrlə Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılmasının vacibliyini xüsusi olaraq vurğulayıb. Bu mənada, muxtariyyət həm də Heydər Əliyev əmanətidir. Onun 95 illik yubileyinin muxtar respublikada dövlət səviyyəsində qeyd olunması, eyni zamanda Heydər Əliyev siyasi xəttinə dönməz sədaqətin bariz nümunəsidir.

Bu gün Naxçıvan Muxtar Respublikası uğurla inkişaf edir, yeni-yeni nailiyyətlər qazanır. Naxçıvanın muxtariyyətini möhkəmləndirən mühüm amillərdən biri də, şübhəsiz, ötən 95 il ərzində buradakı sosial-iqtisadi inkişafdır. Ancaq bu da reallıqdır ki, Naxçıvanda son 24 ildə gedən inkişaf prosesləri, quruculuq-abadlıq işləri nəinki muxtariyyətin geridə qalan 71 ilində, hətta Naxçıvanın mövcudluğunun 5 minillik tarixində də nəzərə çarpmayıb. Yüksək iqtisadi potensiala malik olan muxtar respublikada bu gün bütün dövlət proqramlarının, infrastruktur layihələrinin böyük uğurla həyata keçirilməsi sayəsində Naxçıvan artıq bir sıra mühüm göstəricilər üzrə iqtisadi təhlükəsizliyini də təmin edib, mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Ötən il İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı olan qədim diyarımız Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci və 2018-ci illər üçün ölkənin iqtisadi regionları üzrə hazırladığı investisiya reytinqində ən yüksək ümumi bal toplayaraq birinci olub. Şübhəsiz, bütün bunlar həm muxtariyyətin bəhrələri, həm də aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

**✍ Rauf KƏNGƏRLİ**

---

*2018-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda keçirilən kollegiya iclasını fondun sədri Əli Quliyev açaraq hesabat məruzəsi ilə çıxış edib.*

# Dövlət Sosial Müdafiə Fondunun kollegiya iclası olub



Bildirilib ki, 2018-ci ildə müvafiq dövlət orqanları ilə birlikdə işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət edilməsi zamanı 676 sahibkarlıq obyektində (67 hüquqi şəxs, 609 fiziki şəxs) 511 yeni əmək müqaviləsi bağlanılıb, 1811 əmək müqaviləsində isə əməkhaqqı artırılıb.

Qeyd edilib ki, hesabat dövründə fondun hesabına 53 milyon 380 min manat proqnoza qarşı 71 milyon 829 min manat vəsait daxil olub, proqnoz tapşırıqlara 134,6 faiz əməl edilib. Məcburi dövlət sosial sığorta haqlarının 48 milyon 612 min manatı, yaxud 67,7 faizi büdcə təşkilatlarının, 23 milyon 216 min 330 manatı, yaxud 32,3 faizi isə qeyri-büdcə təşkilatlarının payına düşüb.

Diqqətə çatdırılıb ki, bəhs olunan dövrdə Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" imzaladığı 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən bu kateqoriyadan olan əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsi 5,7 faiz artırılıb. Həmçinin "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 aprel tarixli Sərəncamına müvafiq olaraq muxtar respublika üzrə bu kateqoriyadan olan pensiyaçılara, ümumilikdə, 473 min manat vəsait ödənilib. Bundan əlavə, fondun yerli orqanları tərəfindən, ümumilikdə, 1366 nəfərə əmək pensiyası təyin edilib.

Fondun sədri diqqətə çatdırıb ki, 2018-ci ildən etibarən pensiyaçıların ərizələri nəzərə alınmaqla pensiyaların kənd yerlərində poçt bölmələri vasitəsilə ödənilməsi işi də uğurla həyata keçirilir. Belə ki, muxtar respublika üzrə 330 nəfər əmək pensiyaçısının pensiyası poçt bölmələri vasitəsilə ödənilib.

Vurğulanıb ki, 2018-ci ildə 3373 sığortaolunan sosial sığorta şəhadətnaməsi ilə təmin edilib. Beləliklə, fərdi uçot sistemində qeydə alınaraq sosial sığorta şəhadətnaməsi alan sığortaolunanların sayı 172 min 309 nəfərə çatıb. Həmçinin bəhs edilən dövrdə fonda vətəndaşlardan ərizə ilə daxil olan 889 sorğu və 684 elektron müraciət araşdırılaraq vətəndaşlara qanunamüvafiq cavablar verilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**✍ Nail ƏSGƏROV**

---

# Şahtaxtı-Poldəşt gömrük-sərhəd buraxılış məntəqəsinin gündəlik iş saatı artırılıb

*Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan vilayətləri arasındakı qarşılıqlı faydalı əməkdaşlıq gömrük münasibətlərinin inkişafında da özünü göstərir. 2017-ci ilin dekabr ayında Ali Məclis Sədrinin İran İslam Respublikasına rəsmi səfəri iqtisadi münasibətlərin və ticarət əlaqələrinin genişləndirilməsi baxımından da əhəmiyyətli olub.*



Səfər çərçivəsində aparılmış müzakirələrdən sonra Poldəşt gömrüyünə müstəqil idarə statusu verilib, Şahtaxtı-Poldəşt gömrük-sərhəd buraxılış məntəqəsinin iş saatının artırılması qərara alınıb. Yanvar ayının 21-dən Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin gündəlik iş saatı 12 saatdan 16 saata çatdırılıb. Artıq bu gömrük orqanı Bakı vaxtıla səhər saat 08[30]-dan gecə saat 00[30]-dək fəaliyyət göstərəcəkdir.

İş vaxtının uzadılması vətəndaşların bu sərhəd-keçid məntəqəsindən istifadəsinin daha da yaxşılaşmasına, xarici ticarət dövriyyəsinin artmasına, tranzit imkanlardan daha geniş istifadəyə şərait yaradacaqdır.

Şahtaxtı gömrük-sərhəd buraxılış məntəqəsi beynəlxalq statusa malik gömrük orqanlarımızdan biridir. Burada modern gömrük infrastrukturunun yaradılması, möhkəm maddi-texniki bazanın, o cümlədən X-Rey tipli rentgen nəzarət qurğusunun mövcud olması mallara və nəqliyyat vasitələrinə gömrük nəzarətinin çevik və effektiv şəkildə həyata keçirilməsinə imkan verir. Minik, tranzit və yüklü nəqliyyat vasitələrinin, eləcə də Azərbaycanın digər bölgələrinə gedən və əks-istiqamətdə yükdaşıyan nəqliyyat vasitələrinin buraxılışının təmin olunması bu gömrük orqanının muxtar respublikamızın xarici ticarət əlaqələrində rolunu və əhəmiyyətini artırır.

Qeyd edək ki, 2007-ci ildə Araz çayı üzərində yeni Şahtaxtı-Poldəşt körpüsünün, 2009-cu ildə Şahtaxtı Gömrük İdarəsi üçün müasir kompleksin tikilib istifadəyə verilməsi 190 ilə yaxın tarixi olan bu gömrük orqanının fəaliyyətinin artırılmasına və günün tələbləri səviyyəsində qurulmasına hesablanmış addımlar idi. Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında bütün sahələrdə qarşılıqlı münasibətlərin ilbəil möhkəmlənməsi fonunda gömrük əlaqələrinin də inkişafı onu deməyə əsas verir ki, gələcəkdə Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsi tam gücü ilə fəaliyyət göstərəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası ilə bağlı işlər davam etdirilir

*Zəngin tarixi-mədəni irsi, mineral bulaqları, nadir təbiət və qədim memarlıq abidələri, özünəməxsus mətbəxi, sabitlik və müasir infrastruktura malik olan yaşayış məntəqələri Naxçıvanda turizmin inkişafını şərtləndirən əsas amillərdir. Yüksək turizm potensialına malik olan muxtar respublikada dövlət proqramlarının, infrastruktur layihələrinin uğurlu tətbiqi nəticəsində bu sahədə davamlı inkişafa nail olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə qəbul olunmuş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası da bu sahədə fəaliyyətin güclənməsinə əlverişli şərait yaratmışdır.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Dünyanın bir çox ölkələrində turizmin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Azərbaycanda da turizmin inkişafı sahəsində tədbirlər görülür. Bu sahə ilə bağlı dövlət proqramı qəbul olunub və müvafiq qurum yaradılıb. Bu gün Azərbaycan dünyada həm də turizm ölkəsi kimi tanınır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası da turizm üçün çox əlverişlidir. Ona görə də muxtar respublikada mövcud imkanlardan səmərəli istifadə olunur, turizm bölgələri yaradılır və kəndlər abadlaşdırılır".***

Müasir dövrdə turizm sahəsində təbliğatın aparılmasında internetin imkanlarından geniş istifadə olunur. Muxtar respublikada bütün yaşayış məntəqələrinin sürətli internetlə təmin olunması mövcud turizm potensialının təbliği və tanıdılması sahəsində geniş imkanlar açır. Qarşıda duran əsas vəzifələrdən biri də turizm təyinatlı internet saytlarının yaradılması və fəal təbliğat işinin görülməsidir. Ötən dövrdə Naxçıvan Muxtar Respublikasının turizm potensialı ilə bağlı məlumatların hazırlanması, internetdə yerləşdirilməsi və onların daim yenilənməsi diqqətdə saxlanılmışdır. Belə ki, *"www.virtual-nakhchivan.az"* internet portalının təqdimatı keçirilmiş, Qarabağlar Türbə Kompleksinin *(www.garabaglartk.nakhchivan.az)*, Duz Muzeyinin *(www.duzmuzeyi.nakhchivan.az)* və Bəhruz Kəngərli Muzeyinin *(www.behruzkengerli.nakhchivan.az)* internet saytları hazırlanmış, domen adları verilərək qlobal şəbəkədə yerləşdirilmişdir.

Milli dəyərlərimizin qorunub yaşadılması, xüsusilə xalq sənətkarlığının inkişafı turizmin əsasını təşkil edir. Ötən dövrdə bu istiqamətdə də işlər görülmüş, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən 50 sənətkarla maarifləndirici iş aparılmış, muxtar respublikanın tarixi memarlıq abidələrini və milli ornamentləri özündə əks etdirən 12 min 905 manat dəyərində 722 əl işi hazırlanaraq Naxçıvan Biznes Mərkəzinin satış obyektlərinə göndərilmiş və 316-nın satışı həyata keçirilmişdir. "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirləri ilə əlaqədar 748 suvenir hazırlanmış, 35 xalça toxunmuşdur. İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin Urmiya şəhərində Naxçıvan Muxtar Respublikasında istehsal olunan ərzaq məhsulları və əl işlərinin sərgi-satışı təşkil olunmuş, 62 əl işi satılmış, İran İslam Respublikasının Culfa Azad Ticarət və Sənaye Zonasında "Novruz yumurtaları üzərində nəqqaşlıq" adlı beynəlxalq sərgidə muxtar respublikanın 2 sənətkarının iştirakı təmin edilmiş, 56 əl işinin sərgi-satışı həyata keçirilmişdir.

Muxtar respublika kəndlərinin geniş turizm potensialı vardır. Bu potensialdan səmərəli istifadə olunması, kənd turizminin inkişafı istiqamətində də ardıcıl tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında 2018-ci il 29 noyabr tarixli Sərəncamına əsasən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılmış, kənd abadlaşdırılmış, 65 ev yenidən qurularaq müasir şəraitlə təmin edilmişdir. Həmçinin Ağbulaq Xizək Mərkəzinin




yaradılmasına başlanılmışdır. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin turist marşrutu xəritəsi hazırlanmış, kənddə yaradılmış müasir infrastruktur və geniş turizm potensialı barədə məlumatlar Azərbaycanda və 20-dən çox xarici ölkədə fəaliyyət göstərən 163 mehmanxana və turoperatorun elektron poçt ünvanlarına göndərilmişdir. Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, sosial şəbəkələrdəki qrup və səhifələrində Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təbliği istiqamətində ardıcıl işlər görülmüşdür.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən 10 restoran və iaşə obyektində fərdi sənət ustalarının və musiqi kollektivlərinin çıxışları təşkil edilmiş, turistlərə xidmət edən nəqliyyat vasitələrində xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti tərəfindən muxtar respublikada taksi fəaliyyəti göstərən sürücülərin muzeylərdə olması və maarifləndirilməsi işi təşkil edilmişdir. Həmçinin sərhəd-keçid məntəqələrində, eləcə də Naxçıvan Beynəlxalq Hava Limanında quraşdırılan elektron məlumat lövhələrində turistləri maraqlandıran məlumatlar, Naxçıvan Muxtar Respublikasının görməli yerlərinin fotoslaydları yerləşdirilmiş, gömrük orqanlarındakı infoköşklərdə muxtar respublikanın muzeyləri, tarixi abidələri və turizm obyektləri ilə bağlı videoçarxların nümayişi təmin edilmişdir. Naxçıvan Beynəlxalq Hava Limanında turistlərin gömrük sərhədindən keçməsini asanlaşdırmaq məqsədilə gömrük qanunvericiliyinə uyğun olaraq bəyanetmənin yaşıl və qırmızı kanallar vasitəsilə həyata keçirilməsi üçün müvafiq şərait yaradılmışdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin əməkdaşları tərəfindən Culfa və Sədərək gömrük-keçid məntəqələrində 24 saat, Şahtaxtı gömrük-keçid məntəqəsində 12 saatlıq iş rejiminə, Naxçıvan Beynəlxalq Hava Limanı və Naxçıvan Şəhər Dəmir yolu Stansiyasında isə muvafiq nəqliyyatın hərəkət qrafikinə uyğun olaraq xidmət aparılmış, müxtəlif viza və birdəfəlik giriş icazələri rəsmiləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən əcnəbilərin olduğu yer üzrə qeydiyyatı sadələşdirilmiş, onlar həqiqi buraxılış məntəqələrində qeydiyyatın aparılmasına əlverişli şərait yaradılmış, xidmətə elektron qaydada və ya şəxsən müraciət etmələri təmin edilmişdir.

Muxtar respublikanın turizm potensialının təbliği məqsədilə təbiət və tarixi abidələrə ekskursiyaların təşkili də diqqətdə saxlanılmış, gənclərin Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı ərazisində mövcud olan Milli Parka ekskursiyaları təşkil edilmişdir.

Naxçıvanın zəngin tarixi-mədəni irsi turistlərin diqqətini daha çox cəlb edir. Xüsusilə də tarixi abidələrin bərpa və tədqiq olunması, onlar haqqında kitabların yazılması imkan verir ki, turistlər xalqımızın qədim tarixi, həyat tərzi və mədəniyyəti barədə ətraflı məlumat əldə etsinlər. 2018-ci ildə də bu iş davam etdirilmiş, Qarabağlar Türbə Kompleksinin, Naxçıvan şəhərində İmamzadə Kompleksinin, Babək rayonunun Nehrəm kəndindəki İmamzadənin, Şərur rayonunun Yengicə kəndində Şərq hamamının və Culfa rayonunda Qazançı körpüsünün bərpası başa çatdırılaraq ziyarətçilərin istifadəsinə verilmişdir. Həmçinin "Naxçıvan türbələri", "Naxçıvan imamzadələri", "Naxçıvan hamamları", "Naxçıvan buzxanaları" və "Qarabağlar Türbə Kompleksi" kitabları nəşr edilmişdir.

Turizmin inkişafında kadr hazırlığı əsas amillərdəndir. Ötən dövrdə kadr hazırlığı da diqqətdə saxlanılmış, Ordubad Texniki Peşə və Sürücülük Məktəbində və Naxçıvan Şəhər Peşə Liseyində Turizm agenti ixtisası üzrə peşə kursu fəaliyyətə başlamışdır. Naxçıvan Şəhər Peşə Liseyində Turizm agenti ixtisası üzrə təhsil alan müdavimlərə Naxçıvan Turizm İnformasiya Mərkəzinin əməkdaşları tərəfindən ixtisas dərsləri keçilmişdir.

Turizm sahəsində reklam çarxlarının xüsusi rolu nəzərə alınaraq reklam-informasiya materiallarının hazırlanması işləri davam etdirilmiş, "Naxçıvan-Qarabağlar" turist marşrutu bukleti hazırlanmışdır. Naxçıvan və Ordubad şəhərləri üzrə piyada marşrutları hazırlanmış və Naxçıvan Turizm İnformasiya Mərkəzinə gələn turistlərə təqdim edilmişdir. Ötən ilin dekabr ayında Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin və "Duzdağ" Hotelin nümayəndələrinin iştirakı ilə Qazaxıstanın Astana şəhərində "Duzdağ günləri" adlı beynəlxalq konfrans keçirilmiş, Duzdağ Fizioterapiya Mərkəzi və "Duzdağ" Hoteli haqqında bukletlər və kataloqlar konfrans iştirakçılarına təqdim edilmişdir.

Muxtar respublikada gənclərə göstərilən dövlət qayğısı bütün sahələrdə olduğu kimi, asudə vaxtın səmərəli təşkilində də öz əksini tapır. Gənclərin asudə vaxtının səmərəli təşkili istiqamətində ötən il mühüm layihələr reallaşdırılmış, tədbirlər keçirilmişdir. Muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin, idmançıların Ağbulaq İstirahət Mərkəzində qış və yay məktəbi təşkil edilmiş, "Naxçıvan Muxtar Respublikasının turizm potensialının tanıdılmasında gənclərin rolu" mövzusunda tədbir, "Muxtar respublikanı necə tanıdırıq?" mövzusunda dəyirmi masa keçirilmiş, Naxçıvan Muxtar Respublikasında yerləşən muzeylərə və tarixi abidələrə ekskursiyalar təşkil edilmişdir.

Turist səfər etdiyi ölkənin coğrafiyası, tarixi, mədəniyyəti, mətbəxi, qonaqpərvərliyi ilə bağlı məlumatları öz ölkəsinə aparmaqla, bir növ təbliğatçıya çevrilir. Ona görə də ötən dövrdə internet resurslarından səmərəli istifadə edilməklə muxtar respublikanın turizm potensialının tanıdılması istiqamətində işlər davam etdirilmiş, mərkəzin internet səhifəsi muxtar respublikanın turizm imkanlarını əks etdirən materiallarla zənginləşdirilmiş, hazırlanmış videoçarxlar mərkəzin "Youtube" kanalına daxil edilmiş, "facebook" və "google+" səhifələrində yayımlanmışdır. Mərkəzin "Facebook" sosial şəbəkəsindəki səhifəsində 1000-dən çox paylaşım edilmiş, 350 min 146 baxış sayı qeydə alınmış, "Facebook" sosial şəbəkəsinə 48, elektron poçt ünvanına 13, telefon vasitəsi ilə 161 müraciət daxil olmuşdur. Mərkəzə gəlmiş 557 turistin (4 Almaniya, 1 İspaniya, 15 İtaliya, 4 Çin, 188 İran İslam Respublikası, 29 Türkiyə, 4 Avstriya, 2 Rusiya, 3 Fransa, 2 Banqladeş, 3 Nigeriya, 4 ABŞ, 11 Qazaxıstan, 3 Polşa, 4 Belçika, 1 Kanada, 5 Yaponiya, 1 Çexiya vətəndaşı və Azərbaycanın digər bölgələrindən gələn 273 turist) müraciəti cavablandırılmış, qonaqların mərkəzdə olan çap materialları ilə tanışlığı təmin edilmişdir. Azərbaycanın digər bölgələrində yerləşən turizm informasiya mərkəzlərinə və turizm şirkətlərinə, eləcə də xarici ölkələrə muxtar respublikanın turizm imkanları ilə bağlı materialların göndərilməsi də diqqətdə saxlanılmış, 20-dən çox xarici ölkədə və Azərbaycanda fəaliyyət göstərən 200-dən çox turoperatora, eləcə də mehmanxanaların elektron poçt ünvanlarına və bölgələrdə yerləşən 12 turizm informasiya mərkəzinə məlumatlar göndərilmiş, muxtar respublikanın kütləvi informasiya vasitələrində məlumatlar verilmişdir.

Naxçıvan ötən il beynəlxalq tədbirlərə, idman yarışlarına da uğurlu ev sahibliyi etmişdir. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması da turizm imkanlarımızı nümayiş etdirmək baxımından əhəmiyyətli rol oynamışdır. Görülmüş işlərin və yaradılmış müasir infrastrukturun nəticəsi olaraq 2018-ci ildə Naxçıvan Muxtar Respublikasına ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 414 min 688 turist gəlmişdir.

Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin icrası bundan sonra da diqqətdə saxlanılacaqdır.

**Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti**

# Böyük Britaniyanın "Wanderlust" jurnalında Naxçıvanla bağlı məqalə dərc olunmuşdur


50 BEST NEW TRIPS FOR 2019

NEW FRONTIERS

ICELAND & SVALBARD

Tour remote Arctic islands

NAKHCHIVAN

Rediscover a forgotten exclave

NORWAY

Explore the land of the midnight sun

wanderlust.co.uk February 2019 69

Böyük Britaniya vətəndaşı Alan Amosun təşəbbüsü ilə Londonda nəşr olunan "Wanderlust" jurnalının yanvar sayının 69-cu səhifəsində Naxçıvan Muxtar Respublikası barədə "Unudulmuş bir ərazini yenidən kəşf edin" başlıqlı məqalə dərc edilmişdir.

Məqalədə qeyd olunur ki, dünyada elə ərazilər var ki, səyahətçilər həmin yerləri, sadəcə, görmürlər. Həmin ərazilər böyük millətlərin cəhdləri, ərazi mübadiləsi və hər iki tərəfin asanlıqla nail olduqları sövdələşmə nəticəsində ayrı salınmışdır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan coğrafi cəhətdən başqa dövlətlərin əhatəsində qalan belə yerlərdəndir. Bura Osmanlı İmperiyasının tabeliyinə keçmiş və 1990-cı ildə kommunist əsarətindən azad olunana qədər Sovetlər Birliyinin tərkibində olmuşdur. Naxçıvanı qədim tarixi məkan kimi tanıyan Regent Holidays şirkəti bu diyara səyahətlər təklif edir. Səyahətə Nuh Peyğəmbərin məzarüstü türbəsi, qədim duz mədənlərində yaradılmış sanatoriyalar və orta əsr abidələri daxildir. Səyahətçilər Batabatdan başlayaraq gün ərzində Alp çəmənliklərini, üzən adaları və müqəddəs "Qurani-Kərim"də 7 nəfərin sığındığı qeyd olunan "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksini görə bilərlər. Əsas məsələ bu torpağa ayaq basmaqdır.

Qeyd edək ki, Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət və macəra jurnalı "Wanderlust" 1993-cü ildə yaradılıb. Müxtəlif beynəlxalq mükafatlara layiq görülmüş jurnalın dünyanın müxtəlif ölkələrindən milyonlarla oxucusu vardır.

***Yazının sərlövhəsini əbəs yerə belə seçməmişəm. Bu yaxınlarda Bəhruz Kəngərli Muzeyində olarkən rəssamın əsərləri qarşısında heyranlıqdan gəldiyim qənaət belə oldu: Yaş 30, baxış 60. Bəli, cəmi 30 il bu gəlimli-gedimli, bir ucu ölümlü dünyanın qonağı olan, ömür pəncərəsindən həyatı, sadəcə, bir qərinədən də az seyr edən rəssamın zamana baxışının, dünyagörüşünün yaşı 60, hələ, bəlkə də, bundan çox olub. Sözsüz ki, Bəhruz bəy Kəngərlinin əsərlərinə tamaşa edən hər bir kəsdə heyranlıq hissi yaranmamış olmaz. Hələ üstəlik onun 30 səhifəlik ömür kitabını vərəqləyib, bu üç onilliyin birini onun uşaqlığına çıxanda, yerdə qalan illərdə bu qədər, həm də bir-birindən gözəl, qeyri-adi əsərlərin yaranmasını zamanın ömrə, yoxsa ömrün zamana sığdırması qarşısında heyrət etməyə bilmirsən. Düşünürsən ki, bu, yalnız Yaradanın yaratdığına verdiyi nadir istedad ola bilər.***



# Yaş 30, baxış 60 və ya yaşlanmamış yaşlı...

Nədənsə, rəssam deyəndə adamın gözləri önündə yaşlı, saçları ağarmış, üzü yaşanan illərin hər birindən bir cizgi almış insan canlanır. Lakin Bəhruz bəy rəssamlığa yeniliklər gətirdiyi kimi, özü də bir çox rəssamlardan fərqli ömür sürdü. Bir əsrdən artıqdır ki, o, qəlblərdə öz gənc portreti ilə yaşayır. İndiyədək çox rəssamların əsərlərinə baxıb, onların yaradıcılığı ilə tanış olub, fəaliyyəti haqqında oxumuşuq. Yaradıcılığa, adətən, kiçikhəcmli əsərlərlə başlayan, gənclikdə daha asan mövzulara toxunub, daha sonralar, yəni püxtələşdikcə fırçasını abidələr, tarixi məkanlar, portretlər yaratmaqda sınayan rəssamları tanımışıq. Lakin Bəhruz bəy yaradıcılığa elə böyük əsərlərlə başlayıb. Onun "Möminə xatın türbəsi", "İmamzadə"si, "Şəhər məscidi", "Əshabi-Kəhf"i, "Nuhun qəbri", həqiqətən də, öz dövrünün gəncliyində fərqli bir gənc olduğundan söhbət açır. Bu rəsmlərdəki çalarlar, rəng keçidləri heç də hər gəncin duyub, düşündükləri ola bilməz. Sözsüz ki, rəssamın abidələrlə zəngin şəhərin – Naxçıvanın sakini olması da onun yaradıcılığını başqalarından fərqləndirib, əlinə fırça alandan ətrafında gördüklərini rəsmlərə köçürməsinə səbəb olub. Elə illərdir ki, diyarımızda tarixi abidələrin bərpasında orijinal görüntü olaraq Bəhruz bəyin əsərlərinə istinad olunur.

Budur, rəssamın sulu boya ilə çəkdiyi "Qaçqınlar" silsiləsindən olan 30-dək əsəri – "Qaçqınlar", "Ayaqyalın qadın", "İki qaçqın qız" və sair... 1918-1920-ci illərdə erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz dədə-baba torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların portretlərindən ibarət silsilə əsərlərdə üzlərdəki kədər, doğma ocaq yanğısı necə də poetik çalarlarla əks olunmuşdur! Sanki rəsmlər dil açıb qaçqınlıq acısından, torpaq həsrətindən danışacaq. Bir-bir baxıb keçdiyim bu rəsmlər mənə sanki bir film təsiri bağışlayır.

Sözsüz ki, hər bir rəssamın əsərləri onun dünyagörüşünün, bu həyatı necə gördüyünün, bəzən görmək istədiyinin əksidir. Bəhruz bəyin realist rəssam kimi yetişməsi də, təbii ki, onun həyat hadisələrinə düzgün yanaşmasından doğub. Və onu Azərbaycan rəssamlığına realizmi gətirən Bəhruz bəy Kəngərli kimi bu sənətin tarixinə həkk edib. Hadisələrə ahıl bir insanın gözü ilə baxıb, gənc bir adamın enerjisi ilə gecəsini gündüzünə qatıb yaratdığı saysız əsərlərin müəllifinin 22 yaşlı rəssam olması insanda heyrət doğurur. 1914-cü ilin iyununda Naxçıvanda açılan bu əsərlərdən ibarət ilk böyük sərgisindəki tamaşaçı heyranlığı "İqbal" qəzetinin onun haqqında bu cümləni yazması ilə nəticələndi: "Cavan rəssamımız gələcəkdə iftixarımız olacaqdır".

Tək realizmmi? Bəhruz bəy portret və mənzərə janrlarında da gözəl rəsm əsərləri yaratmışdır. Onun portretlərinə diqqətlə baxanda özünü sanki canlı insanlarla qarşı-qarşıya durubmuş kimi hiss edirsən. Kömürlə işlədiyi akademik əsərləri və portretləri isə adama möcüzəvi təsir bağışlayır, ağ kağızın üzərində qara kömürlə müxtəlif obrazlar yaratmağın çətinliyi insan zəkasının nələrə qadir olduğundan "söhbət açır". "Nəhəcir dağları"nın, "Ağrı dağı"nın, "Haçadağ"ın, ümumilikdə isə "Dağlar"ın füsunkarlığı, "Ağaclar"ın, "Bahar"ın, "Payız"ın gözoxşayan, könülaçan mənzərələri qarşısında heyrət edirsən. Mənzərələrdəki rəng seçimi, təbiilik bir insanın təbiətə necə bağlılığının, onu duyduğunun, hiss etdiyinin göstəricisidir.

"Naxçıvan toyu" bir əsr bundan əvvəlki toylarımızın bugünkülərə nümunə olan mənzərəsini, buradakı milli geyimlər, zinət əşyaları, çalğı alətləri, rəqslər qədim diyarımızın zəngin mənəvi irsini ortaya qoyur. "Naxçıvan gözəli" bu yurdun təbii, boyasız gözəllərindən, "Naxçıvan çaparı" igid, ər oğullarımızdan "danışır".

2002-ci ildə ümummilli liderimiz Heydər Əliyevin iştirakı ilə açılışı olan Bəhruz Kəngərli Muzeyində rəssamın sərgilənən əsərlərindən 61-i orijinaldır. Bundan başqa, muzeydə onun yaradıcılığı boyu cızıb, yəqin ki, sonralar rəsm əsərlərinə çevirmək istəyində olduğu 109 eskiz də yer alır. Bu eskizlər də onun əsərləri qədər dəyərlidir. Diqqətçəkən məqamlardan biri rəssamın sərgilənən əsərləri arasında "Yatmış uşaq" silsiləsindən olan 30-dək rəsmdir. Müxtəlif fonlarda, vaxtlarda çəkilmiş bu rəsmlər sirli məqamları ilə insanı düşünməyə vadar edir. Nə üçün bu qədər yuxuda olan uşaq rəsmi, məsum görüntü? Çox düşünürəm və belə qənaətə gəlirəm ki, bu rəsmlər, bəlkə də, rəssamın duyğularında yaşatdığı övlad həsrətindən doğubmuş?..

Bəhruz Kəngərli həm də milli teatr rəssamlığının banilərindəndir. O, Naxçıvan teatrında səhnəyə qoyulan 60-dək əsərə, o cümlədən "Ölülər", "Hacı Qara", "Pəri-cadu" tamaşalarına bədii tərtibat və geyim eskizləri vermişdir.

Bəhruz bəyin füsunkar əsərlərinə tamaşa edə-edə ümummilli liderimiz Heydər Əliyevin rəssam haqqında söylədiyi fikirləri xatırlayıram: ***"Bəhruz bəy Kəngərlinin əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustadlığına görə, ikincisi, onun yaratdığı obrazlara görə – mən insan obrazlarını deyirəm. Xüsusən o ağır dövrün, 1918, 1919, 1920-ci illərin çətin dövründə xalqımızın ağır vəziyyətdə olmasını az da olsa, öz əsərlərində əks etdiribdir".***



Naxçıvanda istedadlı insan, unudulmaz şəxsiyyətlərdən biri kimi Bəhruz bəy Kəngərliyə də layiq olduğu yüksək dəyər verilib. Naxçıvan şəhərində rəssamın adını daşıyan muzeyi və bir zamanlar sərgisi açılan yerdə Rəssamlar Parkı yaradılıb. Rəssamlar Birliyində Bəhruz Kəngərli adına Sərgi Salonu açılıb. Əsərlərinin tam külliyyatı albom-kataloq şəklində hazırlanıb, haqqında sənədli film çəkilib. Şair-dramaturq Adil Babayevin rəssama həsr etdiyi "Yarımçıq şəkil" pyesi tamaşaya qoyulub. 120 illik yubileyinə həsr olunan zərf və marka buraxılıb. Məzarı üzərində qəbirüstü abidəsi ucaldılıb və sair. Bəhruz bəy Kəngərlinin adının əbədiləşdirilməsi və irsinin öyrənilməsi ilə bağlı bütün bu işlərin müəllifi olan Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Əgər Əcəmi Naxçıvani Azərbaycan memarlıq sənətində yeni bir məktəbin əsasını qoymuşdursa, görkəmli fırça ustası Bəhruz bəy Kəngərli də Azərbaycan rəssamlığında realizm məktəbini yaratmışdır".***

Muzeydə rəssamın əsərləri ilə yanaşı, naxçıvanlı rəssamların Bəhruz bəyi düşündükləri, xəyallarında canlandırdıqları kimi portretləşdirdikləri əsərlər də sərgilənir. Rəssama, onun əsərlərinə olan sevgi xalçaçı rəssam Aynurə Əsədullayevanın "Bəhruz Kəngərli dünyası" adlı əsərində isə daha özünəməxsus şəkildə ifadə olunub. Bəhruz bəyin 1911-ci ildə işlədiyi avtoportretinin və onun ətrafında əsərlərinin də ilmə-ilmə xalçaya köçürülməsi rəssama sevginin, əsərlərinə heyranlığın təzahürüdür. Muzeydə sərgilənən kitablar da rəssamın həyat və yaradıcılığının öyrənilməsinə əvəzsiz töhfədir.

Muzeydən Bəhruz bəyin qısa, lakin zəngin ömür yolunun, bənzərsiz yaradıcılığının təəssüratları ilə ayrıldım. Yolboyu bir zamanlar çox istedadlı, lakin bir o qədər də sadə insan olan İohann Sebastyan Baxın şagirdinin onun məzarı üstündə söylədiyi fikirləri xatırlayıram: "Bizim qoca o qədər sadəürəkli idi ki, dahiliyinin qiymətindən xəbəri yox idi. Dünyanın tanıyıb onu anlaması üçün aradan, bəlkə də, əsrlərin keçməsi lazım olacaq".

Bəli, əsrlər sonra Bax musiqisi qarşısında bütün Avropa "diz çökdü". Düşünürəm ki, Bəhruz bəy Kəngərli yaradıcılığının sirli məqamları bir gün tamamilə tədqiq olunarsa, onun 2 mindən çox itmiş əsəri tapılıb ortalığa çıxarılarsa, bu əsərlər qarşısında isə Qoca Şərqin "diz çökəcəyi" sözsüzdür.

Beləcə, Bəhruz bəy Kəngərlinin əsərləri ilə tanış olandan və onlara doyunca tamaşa edəndən sonra mən də riqqətə gəlib bir portret yaratmaq istədim, lakin fırça və rənglərlə deyil, qələm və sözlə. Buna nə dərəcədə nail olduğumu deyə bilməsəm də, "Yaşlanmamış yaşlı" adlı bir portret yaratdım...

**Mətanət MƏMMƏDOVA**



# "Bəhruz Kəngərli Azərbaycan xalqının görkəmli rəssamıdır" mövzusunda interaktiv dərs keçilib

*Naxçıvan torpağı zaman-zaman Azərbaycan xalqına görkəmli şəxsiyyətlər bəxş etmişdir. Belə şəxsiyyətlərdən biri də milli rəssamlığın inkişafında özünəməxsus rol oynayan, Azərbaycan rəssamlıq sənətinə yeni üslub və milli ruh gətirən, ilk realist fırça ustası Bəhruz Kəngərlidir.*

Anadan olmasının 127-ci ildönümü münasibətilə rəssamın Naxçıvan şəhərindəki muzeyi ilə ümumtəhsil məktəbləri arasında "Bəhruz Kəngərli Azərbaycan xalqının görkəmli rəssamıdır" mövzusunda interaktiv dərs keçilib. İnteraktiv dərsdə muzeyin bələdçisi bildirib ki, Bəhruz Kəngərli Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il mayın 22-də imzaladığı Sərəncam ilə yaradılıb, 2002-ci il iyunun 18-i ümummilli lider Heydər Əliyevin iştirakı ilə açılışı olub. Hazırda bu mədəniyyət müəssisəsinin fondunda, ümumilikdə, 1259 eksponat vardır ki, bunlardan 388-i ekspozisiyada sərgilənir.

Bəhruz Kəngərli Muzeyinin ekspozisiyasının zənginləşdirilməsi məqsədilə görkəmli rəssamın 200-dən çox əsəri Azərbaycan Milli İncəsənət Muzeyindən gətirilərək bu mədəniyyət müəssisəsinə təqdim edilib.

Qeyd olunub ki, Bəhruz Kəngərli Azərbaycan boyakarlığında realizmin əsasını qoyub, onu yeni ictimai məzmun və janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirib. Görkəmli rəssamın yaradıcılığında zəngin lirika, nikbin əhval-ruhiyyə duyulur. Bu isə rəssamın Vətənə, təbiət gözəlliklərinə bəslədiyi sönməz məhəbbətindən doğur. Öz yaradıcılığında realizm ənənələrinə sadiq qalan sənətkar bu janrı istər məzmun, istərsə də bədii forma cəhətdən zənginləşdirərək yeni bir sənət səviyyəsinə qaldırıb. Onun "Qaçqınlar" silsiləsinə daxil olan əsərləri bu gün də insanları düşündürür. Bu əsərlərdə mənfur ermənilərin törətdikləri vəhşiliklər böyük ustalıq və vətənpərvərliklə təsvir edilib.

Vurğulanıb ki, görkəmli sənətkarın sənət dünyasına, yaradıcılığına onun doğulub boya-başa çatdığı doğma Vətənində daim yüksək diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" 2001-ci il 15 fevral tarixli Sərəncamına əsasən Bəhruz Kəngərlinin Naxçıvan şəhərindəki məzarüstü abidəsi bərpa edilib, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna rəssamın adı verilib, onun yubileyi muxtar respublikada geniş qeyd olunub, albom-kataloq və sənədli film hazırlanıb. 2016-cı ildə isə Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkı istifadəyə verilib, görkəmli rəssamın abidəsi ucaldılıb.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbində şagirdlər tərəfindən izlənilib.



*Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb*



*Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbi*

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 60